

Elşən Mirişli
Gəncə şəhəri,
tarixçi

VII Yazı

## Vətən Xainləri Qadınlarının Akmola Düşərgəsi

# Azərbaycanda 1920-1950-ci illər repressiyaları

***Stalin repressiyalarının qurbanı olmuş şəxslərin ailə üzvü olan qadınların məcburi saxlandığı Islah düşərgəsi Kazaxstan ərazisində yerləşirdi. Karaqanda İslah Əmək Düşərgəsinin tərkibində Akmola bölgəsində idi.Sürgün olunan qadınlar arasında Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Cavad,Fətəli xan Xoyskinin qızı Tamara Xoyskaya və Quba Qızlar Seminariyasının rəhbəri Sənubər Eyyubova kimi onlarla Azərbaycan türkü qadın var idi.***

***Düşərgənin adı qısalaşdırılıb və insanlar arasında "ALJİR"adlandırılıb.SSRİ-də mövcud olmuş ən böyük qadın düşərgələrindən biri və "QULAQ arxipelaq"nın "ada"larından biridir.1938-ci ildə düşərgədə 8 minə yaxın məhbus qadın var idi. Onlardan 4500 nəfəri "Vətən xainlərinin ailə üzvləri" (VXAÜ) idilər.Bundan başqa 1500 nəfər "VXAÜ"də Karaqanda İslah Əmək Düşərgəsinin digər bölmələrində saxlanırdılar.***

SSRİ Xalq Daxili İşlər Komissarlığının 15 avqust 1937-ci il əmrinə əsasən Akmolinsk (Kazaxstanın indiki şəhəri Astana şəhəri) şəhərinin cənub qərbində Akmol yaşayış məntəqəsində Karaqanda düşərgəsinin bir bölməsi kimi yaradılmışdır.

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 8 iyun 1934-cü ildə verdiyi qərarına əsasən "Vətən xainlərinin" yaxınlarına 5 -10 il azadlıqdan məhrumetmə ya da Sibirin uzaq bölgələrinə 5 il sürgün edilmək cəzası verilməli idi."ALJİR" düşərgəsi 30 hektar ərazini əhatə etməklə yanaşı Karaqanda və Akmola vilayətlərində bölmələri də var idi.

Məhkum olunanların və sinfi düşmənlərin qohumları da repressiyalardan qaça bilmədilər.16 mart 1937-ci ildə Müsavat partiyasının lideri Məmməd Əmin Rəsulzadənin 18 yaşına yenicə çatmış oğlu Resul Rəsulzadə ölüm hökmünə məhkum olundu.Sovet Azərbaycanının dövlət xadimi Qəzənfər Musabəyovun bir çox yaxın qohumları da repressiyalardan əziyyət çəkdilər.Onun bacısı Aynanı və bacısının yoldaşı Həmid Sultanovu güllələdilər.

***Şair Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər Axundzadə də həbsdən qaça bilmədi,lakin həbsxanada o xəstələndi və onu psixiatrik xəstəxanaya yerləşdirdilər.Tatar tarixçi Qaziz Qubaydullinin həyat yoldaşı Rəqibə Qubaydullina beş illik əmək düşərgəsinə sürgün edildi,şerqşünas Bəkir Çobanzadənin yoldaşı Bakı Opera Teatrının aktrisası Ruqiyyə Abdulina isə 8 il əmək düşərgəsinə məhkum olundu.***

Bir sıra qəza komitələrinin sədri olan Əsəd Qarayevin də həyat yoldaşı Sitarə Qarayeva da əmək düşərgəsinə məhkum olundu və elə orada da dünyasını dəyişdi.Yetkinlik yaşına çatmayan uşaqlarını evlərindən çıxardıb qızlarından birini isə partiyadan çıxardılar.Azərbaycan Xalq Cümhuriyyəti hökuməti dövründə vacib postlar tutmuş Xosrov Sultanovun qardaşı Sultan Sultanovun həyat yoldaşı Dilruba xanımı üç oğlu və bir qız övladı ilə birlikdə Kazaxstana sürgün etdilər,halbuki Dilbuba xanımla Sultan bəy hələ 1922-ci ildə boşanmışdılar.

### Xədicə Qayıbova

Xədicə Osman bəy qızı Qayıbova (24 may 1893,Tiflis,Rusiya İmperiyası-27 oktyabr 1938, Bakı SSRİ). Xədicə xanım incəsənət xadimi və Azərbaycanın ilk qadın pianoçularından biri idi.

Xədicə Qayıbova 24 may 1893-cü ildə ailəsinin altıncı uşağı olaraq Tiflisdə dünyaya gəlmişdir.Atası torpaq idarəsində çalışan və Tiflisin məşhur ruhanilərindən olan Osman bəy Müftizadə,anası isə XIX əsrdə burada məskunlaşan tatar Terequlovlar ailəsinə mənsub Züleyxa xanım idi.Atası qızına mükəmməl təhsil vermək arzusunda idi.Ona görə də bütün imkanlarından istifadə edərək onun Müqəddəs Nina Qızlar məktəbinə daxil olmasına nail oldu.Xədicə xanım burada orta təhsillə yanaşı,eyni zamanda mükəmməl fortepiano təhsili də aldı.1911-ci ildə Xədicə xanım "Qızıl xaç nişanı" ilə orta təhsilini başa vurmuş,eyni zamanda professor N.Nikolayevin fortepiano sinifində xüsusi kurs keçərək Qızıl haşiyəli diploma layiq görülmüşdür.

Ancaq atası,bacısı və qardaşını vərəmdən itirən Xədicə xanımın təhsili yarımçıq qalır.1911-ci ildə buradan ayrılan 18 yaşlı Xədicə xanım Nadir Qayıbovla ailə həyatı qurdu. Nadir bəy Qafqaz müftisi Hüseyn əfəndi Qayıbovun oğlu və Azərbaycanın ilk şəfqət bacısı Nigar Şıxlinskayanın qardaşı idi.Hüseyn Əfəndi Qayıbov bu dövrdə bütün Qafqazda məşhur olan Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin açılmasının təşəbbüskarlarından biri olmuşdu. Sonrakı bir neçə ildə qadınlar üçün nəzərdə tutulan rus-müsəlman məktəbində dərs deməyə başlayan Xədicə xanım 1919-cu ildə ailəsi ilə birlikdə Bakıya köçdü.Rus ordusunun 1920-ci ilin 27 aprelində Bakını işğal etməsindən sonra Azərbaycan SSR Xalq Təhsil Komissarlığında Şərq musiqisi şöbəsinə rəhbər təyin edildi.Musiqiçinin təşəbbüsü ilə "Qısamüddətli Şərq musiqi kursları" təşkil edilir,uşaq xoru yaradılır.Onun təşəbbüsü və birbaşa iştirakı ilə Azərbaycan qadınları üçün musiqi-dram studiyası yaradılmışdır.O illərdə qurulan Şərq konservatoriyasının banilərindən hesab edilən Xədicə xanım fortepianoda ifa etdiyi klassik muğam əsərləri ilə qısa zamanda şöhrət qazandı.Azərbaycan musiqi folklorunun toplanmasında böyük rol oynamışdır.

***1927-1931-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində təhsil almışdır.1933-cü ildə Xədicə xanım həbs edildi və eks-inqilabçılıqda ittiham olundu.Ancaq lazımi qədər dəlil olmadığından 3 ay sonra buraxılan Xədicə xanım çox keçmədən öz peşəkar fəaliyyətinə davam etdi.Onu əksinqilabi fəaliyyətdə və türkçülük ideyalarının yayılmasında günahlandırsalar da heç bir sübut,dəlil,olmadığına görə həbsdən azad etdilər.1934-cü ildən Xədicə xanım Dövlət Konservatoriyasında elmi-tədqiqat işi aparmağa başlamışdır.1934-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının tədqiqat heyətinə daxil oldu və Azərbaycanın musiqi mirasının araşdırılması ilə vəzifələndirildi.***

16 mart 1938-ci il tarixində Mircəfər Bağırovun tapşırığı ilə Azərbaycan Daxili İşlər Xalq Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsi birinci bölməsinin 3-cü şöbə rəisinin müavini leytenant Tevosyan belə arayış tərtib edib:

"Türk və İngilis qərargahlarının Bakıda olduqları zaman 1893-cü ildə anadan olmuş,Xədicə xanım Qayıbova onlarla yaxın əlaqədə olub.Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Qayıbova öz evində Müsavat partiyasının başçılarından biri olan Mustafa Vəkilovu gizləmiş və onun qaçması üçün şərait yaratmışdır.Mustafa Vəkilov xaricə qaçıb və hazırda Türkiyədədir.1924-cü ildə Qayıbovanın evində türk ordusunun zabiti Sultan Hüseynzadə gizlənib.Sonra o,İrana qaçıb və orada alman və yapon kəşfiyyatına xidmət edir.Qayıbovanın həyat yoldaşı Rəşid Qayıbov XDİK tərəfindən əksinqilabi-millətçi təşkilatın üzvü kimi həbs edilmişdir.Göstərilənlərə əsasən Qayıbova həbs edilib Azərbaycan SSR CM-nin 68-ci maddəsinə əsasən istintaqa cəlb edilməlidir".

Məhz bu arayışa əsasən 17 mart 1938 tarixində, həyat yoldaşı Rəşad Qayıbovun həbs olunmasından qısa müddət sonra Xədicə xanım da həbs edildi.1938-ci il aprelin 28-ə kimi Xədicə xanım Bağırovun tapşırığı ilə müstəntiq tərəfindən 9 dəfə dindirilmişdir.

Mircəfər Bağırov iki dəfə evlənsə də sevdiyi qadın görkəmli pianoçu və maarifçi Xədicə Qayıbova olub.O,3 dəfə ərdə olsa da,Bağırova heç vaxt "hə" cavabı vermir.Buna görə,Bağırov onu həbs etdirir və sonuncu dəfə "hə" cavabı almaq istəyir.Bu dəfə də "Yox" söyləyən Qayıbovanı tapançası ilə güllələyir və hər kəsin qarşısında hönkür-hönkür ağlayır.Xədicə Qayıbova 1938-ci il oktyabrın 27-də (45 yaşında) Mircəfər Bağırov tərəfindən öldürülmüşdür.Qanunla idarə olunmayan ölkədə belə cinayətlərə əhəmiyyət verilmirdi.Məhkum olunduğu zaman eyni hücrədə qaldığı Zivər xanım Əfəndiyeva (Sultanməcid Əfəndiyevin xanımı) sonrakı illərdə xatirələrində qeyd edir ki,hər kəs Xədicə xanım Qayıbovanın sürgün ediləcəyini düşünürdü.Ancaq bilinməyən bir səbəbdən 15 dəqiqəlik bir məhkəmə prosesi güllələnmə ilə başa çatdı.

### İran təbəələri

Stalinin 17 yanvar 1938-ci il tarixli SSRİ Xalq Daxili İşlər Komissarı N.İ.Yejova yazdığı məktubda belə bir hissə var:Bakıda və Azərbaycanda iranlıların aşkar olunmaları və həbs edilmələri ilə bağlı hansı işlər görülüb?

İki gün keçdikdən sonra 19 yanvar tarixində MK-nin siyasi bürosu xüsusi qərar qəbul edir.Qərarda deyilir: "Azərbaycan XKS-ə və MK -ə təklif edilsin ki dərhal İranla sərhəddə yaşayan vətəndaşlar məlumatlandırılsın ki əgər onlar özlərini İran təbəələri sayırlarsa on gün içində sovet vətəndaşlığına keçməlidirlər.Sovet vətəndaşlığına keçən bütün iranlılar bir ay müddətinə Kazaxstana köçürülsünlər.Lakin vətəndaşlığa keçməkdən boyun qaçıran İran təbəəsi olaraq qalmaq istəyənlər dərhal İrana köçürülsünlər imtina etdikləri halda isə həbs olunsunlar."

### SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında repressiyalar

SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında və universitetdə repressiyalar 1936-cı ilin dekabrında Ruhulla Axundovun həbsi ilə başladı.Artıq 1937-ci ilin yanvar ayında bir sıra Azərbaycan alimləri:Hənəfi Zeynallı,Vəli Xuluflu və Bəkir Çobanzadə həbs olunmuşdular.Hətta Bəkir Çobanzadəni Kislovodskda bir sanatoriyada həbs edib xüsusi konvoyla Bakıya gətirmişdilər.18 mart gecə saatlarında tarixçi Qaziz Qubaydullin də həbsə məruz qaldı.Həbsindən dərhal sonra Mircəfər Bağırov "Bakinski raboçi" və "Kommunist" qəzetlərində ona qarşı məqalə dərc etdirdi.19-20 mart tarixlərində Azərbaycan SSR KP MK-nun 6 Mart plenumunda çıxış edən Mircəfər Bağırov R.Axundovun mədəni cəbhədə rəhbərlik etdiyi millətçi işdən danışarkən bəyan edir ki, professorlar Bəkir Çobanzadə və Qazin Qubaydulin Azərbaycandakı pantürkizmin ən parlaq nümayəndələridirlər.4 iyun gecəsi isə Xalid Səid Xocayev həbs olundu.



***Ədəbiyyatşünaslar,yazıçı Salman Mümtaz və SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Əli Nazim 10 il həbsə məhkum olundu.Salman Mümtaz 1941-ci ildə Orlovsk həbsxanasında güllələndi.Bəzi məlumatlara əsasən isə Əli Nazim də onunla eyni ildə dünyasını dəyişib.Lakin bir başqa mənbədə isə onun 1941-ci ildə güllələndiyi qeyd olunub.***

1937-ci ilin sonunda ilk Azərbaycan etnoqraf və arxeoloqu olan Ələsgər Ələkbərovu həbs etdilər. O Azərbaycan dövlət elmi tədqiqat institutunun arxeologiya bölməsinin müdiri və SSRİ EA Azərbaycan filialının Tarix arxeologiya bölməsinin müdiri idi. Ələsgər Ələkbərov 1938-ci ildə həbsdə dünyasını dəyişdi.

Ən konservativ sənədlərlə sübut olunmuş məlumatlara əsasən Sovet İttifaqında siyasi motivlərlə repressiya olunmuş-güllələnmiş,düşərgələrə sürgün edilmiş vətəndaş hüququndan məhrum edilmiş 26 milyona yaxın insan olub.Bu 26 miyon insandan başqa ukraynalıların soyqırımı Qolodomor soyqırımı ilə Stalin öz adını tarixin qara səhifələrinə yazıb.

### Qolodomor soyqırımı

Sovet hakimiyyəti illərində Ukraynalılar üç dəfə süni qıtlıq yaşayıblar.1921-1923,1932-1933 və 1946-1947-ci illər qıtlığı.Ən ağır qıtlıq isə 1932-1933-cü illərdə baş verib.Ukraynada hazırda Stalin rejiminin törətdiyi süni qıtlıq aclıq Ukrayna xalqının soyqırımı kimi də qəbul edilir və qurbanların xatirəsini yad edirlər.

***Bu soyqırım zamanı əksəriyyəti etnik cəhətdən ukraynalı olan ölkənin böyük bir nüfusu aclıqdan ölmüşdür.2006-cı ildən Qolodomor Ukrayna və 15 dövlət tərəfindən ukrayna xalqına qarşı soyqırım kimi tanınmışdır.Bəzi qaynaqlara görə 12 milyon etnik ukraynalının həyatını itirdiyi haqqında məlumatlar mövcuddur.Lakin 2003-cü ildə BMT tərəfindən qəbul edilmiş və 25 ölkənin imzaladığı qətnamədə ölü sayısı 7-10 milyon aralığında göstərilmişdir.2010-cu ildə Kiyev Apelyasiya Məhkəməsinin qərarına əsasən isə aclıqdan qaynaqlanan demoqrafik itki 10 milyona yaxın idi.***

(ardı var)